BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№1 Humanitar elmlər seriyası 2009*

# RUS ƏDƏBIYYATINDA HEKAYƏ JANRININ TƏŞƏKKÜLÜ VƏ INKIŞAFINA DAIR

**L.M.İMAMƏLIYEVA**
*Bakı Slavyan Universiteti*

XIX əsrin 20-ci illərində rus ədəbiyyatında nəsrin kiçik həcmli bir neçə janrı: - nağıl, lətifə, hekayə və povest mövcud idi. Romanla müqaisədə nisbətən kiçik həcmə malik olan əsərlərin janrını müəyyənləşdirmək istər müəlliflərə, istərsə də ədəbiyyatşünas və tənqidçilərə çətinliklər yaradırdı. Bu səbəbdən rus yazıçısı A.Poqorelski (1787-1836) həcmcə povestdən kiçik olan əsərləri «nağıl» və ya «kiçik povest» adlandırmağı təklif etmişdir (2, 504). Bu dövrdə yaşayıb-yaradan nasirlərin - A.Bestu-jev-Marlinskinin, M.Poqodinin, O.Somovun, A.Qlebovun və b. əsərlərinin bir hissəsini A.Poqorelskinin müəyyənləşdirdiyi bölgüyə əsasən «kiçik povest» adlandırmaq olar. XIX əsrin 30-cu illərindən etibarən povest həcmcə artaraq romana yaxınlaşmağa başlamışdır. A.Poqorelski də həcmcə povestdən kiçik olan birhadisəli əsərləri «kiçik povest» adlandırmalı olmuşdur. «Kiçik povest» isə zaman keçdikcə «hekayə» adını almışdır.

XIX yüzilliyin otuzuncu illərində rus ədəbiyyatının məşhur nümayəndələri də nəsrlə yazdıqları əsərlərin janrının müəyyənləşdirilməsində tərəddüdlər edirdilər. Rus klassiki A.S.Puşkin 1831-ci ilin avqustunda dostu P.A.Pletnyova (1762-1865) ünvanladığı məktublardan birində «Mərhum İvan Petroviç Belkinin əsərləri»ni povest (4, 40), digərində isə nağıl adlandırırdı: «...mən <...> tapşırmışam ki, nağıllarımı sənə çatdırsınlar <...> (4, 40); «Dostum Belkinin nağıllarını Qoqolla sənə göndərirəm» (4, 42). «Nəzarətçi» nağılında qusarı Minski adlandırmaq lazımdır... <...>. Epiqrafları nağılların əvvəlində, nağılların adlarını isə ayrıca vərəqdə çap etmək lazımdır...» (4, 43). İşin son mərhələsində A.S.Puşkin A.Poqorelskinin müəyyənləşdirdiyi «povest» və «kiçik povest»(nağıl) təsnifatının təsiri altına düşmüş, son mərhələdə öz silsiləsinə daxil etdiyi əsərləri «nağıl» adlandırmışdır. A.Puşkinin nağıl adlandırdığı bu əsərlər məcmuə şəklində «Belkinin povestləri» adı altında çap olunmuşdur.

V.Q.Belinskinin «povestin kiçik qardaşı» adlandırdığı hekayə XIX əsrin otuzuncu illərinin əvvəllərindən etibarən həcminin kiçikliyinə görə povestdən fərqlənməyə başlamışdır. Sözü gedən dövrdə bir hadisəni təsvir etmək üçün qurulmuş çərçivə povestə dar gəlmiş, əvvəlki illərdən daha qəliz süjet quruluşuna malik olan bu janr artıq romanla müqayisə edilmişdir. Bir hadisəni təsvir edən kiçik həcmli nəsr nümunəsinin- hekayənin inkişafı isə puşkinsayağı və qoqolsayağı ənənələrin əsasını qoymuşdur. Bu ənənələrin taleyi eyni olmamışdır. A.Puşkin «Belkinin po-

vestləri»ndən sonra nəsrin kiçik janrına müraciət etməmişdir. N.Qoqol isə «Dikanka yaxınlığındakı xutorda axşamlar»dan ilhamlanaraq bir-birindən gözəl kiçik nəsr nümunələri yarada bilmişdir. Təsadüfi deyil ki, Qoqolun «Kolyaska» və «Burun» adlı əsərləri Puşkinin «Sovremennik»ində çap olunmuşdur.

Janr quruluşu baxımından «Belkinin povestləri»nə lətifə, «Dikanka yaxınlığındakı xutorda axşamlar»a isə hekayənin «nəqletmə» növü sələflik etmişdir.

A.Puşkin «Belkinin povestləri»ni qələmə almaqla sentimentalizmin və romantizmin sərhədlərini aşmış, realist ruhlu bir əsər yarada bilmişdir. XIX əsrin ilk illərində rus nəsrində ənənə halını almış romantik meyllər 1830-cu illərin nəsr nümunələrində (xüsusilə A.Bestujev-Marlinskinin və V.Odoyevskinin yaradıcılıqlarında) geniş vüsət almışdır. A.Puşkin bu dövrdə yazılan nəsr nümunələrinin qəhrəmanlarının ruhuna hopmuş sentimentalizm və romantizm meyllərinin son nəticədə boş bir oyuna çevrildiyini dərk etmiş, elə bu səbəbdən də «Belkinin povestləri» əsərində realizmə doğru böyük bir addım atmışdır. Puşkin öz silsiləsində hadisələrə realist münasibət bəsləmiş, rus həyatının mövcud çatışmazlıqlarının analizinə cəhd göstərmişdir. Müəllifin «Belkinin povestləri»ndə qaldırdığı «həqiqətin analizi» problemini o dövrün ədəbi tənqidi qavramaq iqtidarında olmamışdır.

XIX yüzilliyin ilk onilliklərində rus povestinin inkişaf mərhələlərindən danışan V.Belinski A.Puşkinin adını nəsrin bu janrında yazıb-yaradan ədiblərin sırasına belə daxil etməmişdir: «...Marlinski, Odoyevski, Poqodin, Polevoy və Qoqol - bu adlar rus povesti tarixinin tamam bir dairəsini, hətta ola bilər ki, həddindən çox tamamlanmış bir dairəsini təşkil edir <...> Adlarını çəkdiyim müəlliflər <...> rus povestinin tarixində xatırlanmalıdırlar; çünki onlar rus povestinin əsl həqiqi nümayəndələridir. Digər müəlliflər haqqında isə onların bütün ləyaqətlərinə baxmayaraq mən sükutla keçirəm»(1, 98).

Göründüyü kimi, 1835-ci ildə tənqidçi V.Belinski A.Puşkini rus nəsrini, daha dəqiq desək, rus povestini yaradanlar sırasında görə bilmirdi. Rus ədəbiyyatının digər tanınmış tənqidçisi G.P.Makoqonenko da bu xüsusda yazmışdır: «Hamıya bəllidir ki, ədəbi tənqid və həmçinin bir çox oxucular realist Puşkini başa düşməmiş, onun realist əsərlərinə kinayəli və skeptik münasibət bəsləmişlər. <...> Ədəbi tənqid Puşkinin «son»unu israrla vurğulayırdı. Bu xora Belinski də qoşulmuşdu. O nəinki bu fikirləri təkrarlayır, hətta 1830-cu illərin ədəbi prosesini xarakterizə edərkən bu fikirlərdən təcrübi nəticələr də çıxarırdı. Onun «Rus povesti və cənab Qoqolun povestləri haqqında» adlı dəyərli məqaləsini yadımıza salaq. Müxtəlif müəlliflərin çoxsaylı povestlərini işıqlandıran geniş müstəvidə Puşkinə və onun «Belkinin povestləri» əsərinə yer tapılmamışdı. Diqqət mərkəzində «Dikanka yaxınlığındakı xutorda axşamlar», «Mirqorod» və «Arabeski» məcmuələrini nəşr etdirmiş cavan yazıçı idi. Qoqol məntiqi qanunauyğunluğa əsasən ədəbiyyatın başçısı elan edilirdi (3, 4).

Belə bir şəraitdə A.Puşkinin yaradıcılığına, onun sənət təcrübəsinə olan diqqət zəifləmiş, N.Qoqola olan rəğbət və diqqət isə həddindən artıq çoxalmışdı. Rus ədəbiyyatında Puşkin və Qoqol ənənələrinin 1840-cı illərin ikinci yarısından etibarən müstəqil janr kimi inkişaf etməyə başlamış hekayə ilə birbaşa əlaqəsi vardır. Qoqol ənənəsinə daha çox

meyllənmə hekayənin «hekayətsayağı» növünün inkişafına və bu şəkildə qavranılmasına gətirib çıxarmış, bu janrın «novellasayağı» inkişafı isə kölgədə qalmışdı. Qoqolun «hekayətsayağı» əsərləri 1830-cu illərdən başlayaraq ənənəvi forma kimi qəbul edilməyə başlamışdı.

Hekayə janrına məxsus olan hekayətçilikdə əsas rolu hekayəçinin tipi və şəxsiyyəti oynayır. Mövzunun seçimi, onun işıqlandırılması, çözülməsi, hadisələrin ümumiləşdirilməsi məsələləri hekayəçinin şəxsiyyəti ilə sıx surətdə bağlıdır. Hekayənin həqiqətə uyğun və inandırıcı olması faktorları da birbaşa hekayəçinin şəxsiyyətindən və tipindən asılı olan məsələlərdir.

Bir çox hallarda hekayəçinin əsərdə iştirakı formal xüsusiyyət daşımışdır. Müəllifin vəzifəsi isə sözü hekayəçiyə verməkdən ibarət olmuşdur. Fikrimizi əsərlərdən gətirdiyimiz misallarla əsaslandıraq: «Nəhayət, uzun bir sükutdan sonra qoca söhbətə başladı... (N.Bestujev); «O, qalstukunu düzəltdi, stulda yerini rahatladı, boğazını arıtlayıb söhbətə başladı...» (P.Sumarokov).

Bu dövrdə hekayətin daha canlı alınmasına cəhd edən yazıçılar da var idi. O.Somovun «Posledniy poedinok»(«Qəribə duel») əsərində oxuyuruq:

« – Yeri gəlmişkən, duellər barədə, - deyə qaradinməz cənab Jermanse bir anlığa dinləndi. - İstəmirsiniz mən sizə qəribə bir duel haqda danışım?

...O tütün qabını barmaqları arasında oynadır, gah tütün iyləyir, gah da dəsmalını cibindən çıxarıb qatlayır, sonra yenidən gizlədirdi. ...gah xəyala dalır, gah da boğazını arıtlayırdı. O, nəhayət söhbətinə başladı... (5, 303-304). Bu əsərdə müəllifin hekayəçiyə olan istehzalı münasibəti aydın şəkildə duyulur. Cənab Jermansenin nə cür bir şəxsiyyət olmasının isə əsərə heç bir dəxli yoxdur.

A.Puşkin «Stansiya nəzarətçisi» əsərində ilk dəfə olaraq hekayəçinin obrazını və tipini yarada bilmişdir. Əsərin qəhrəmanı olan Vırin hadisənin adi şahidi deyil, onun iştirakçısıdır. O, başqalarının yox, şəxsi faciəsini danışdığından səmimi və dürüst olmaya bilmir. Bu səbəbdən də əsərdəki hekayəçinin şəxsiyyəti oxucu üçün tam açıqdır.

A.Puşkinin layiqli davamçılarından olan M.Lermontovun «Zəmanəmizin qəhrəmanı» romanına daxil olmuş üç hekayəsi - «Bela», «Taman» və «Fatalist» adlı əsərləri də hekayəçi problemi kontekstində A.Puşkinin əsərlərinə bənzəyir. Maksim Maksimıç da Vırin kimi səmimi, xeyirxah, çox böyük həyat təcrübəsinə malik bir insandır. Ancaq onun düşüncəsi bir o qədər də yüksək səviyyədə inkişaf etməmişdir. M.Lermontov da şüurlu surətdə hekayəçinin xasiyyətini oxucu üçün açıq şəkildə təsvir etmişdir. Tam şəkildə açılmış xüsusiyyətlərinə görə Maksim Maksimıç Vırindən də mükəmməl hekayəçi obrazıdır.

N.Qoqolun yaratdığı hekayəçi obrazı A.Puşkinin hekayəçisinə bənzəmir. «Dikanka yaxınlığındakı xutorda axşamlar» əsərinin hekayəçisi olan Foma Qriqoryeviç Maksim Maksimıç və Vırindən hadisələrə qiymət verməyi bacaran konkret şəxsiyyət olması ilə fərqlənir. Qoqol şəxsi nöqteyi-nəzərini əsərdə daha əhatəli ifadə etmək üçün hekayəçinin şəxsiyyətini geniş şəkildə işıqlandırmalı olmuşdur. Yazıçı Foma Qriqoryeviçin vasitəsilə rus ədəbiyyatına xalq kütləsi ilə sıx surətdə bağlı olan, demokratik ruhlu obraz gətirmişdir. Foma Qriqoryeviçin hekayəsində hadisə yalnız təsvir edilmir, həm də analiz edilərək qiymətləndiri-

lir. Bu əsərdən sonra qanunauyğun bir hal кimi Qoqolun yaradıcılığında «İvan İvanoviçlə İvan Niкiforoviçin dalaşması haqqında povest», «Köhnə dünya mülкədarları», «Neva prospeкti», «Şinel» кimi sənət inciləri meydana gəlir.

Hекayəçi obrazı çoxölçülü olduğundan hər bir hекayəni nəql edən şəxsin, yəni hекayəçinin özünəməxsus xüsusiyyətləri vardır. Məs. «Şinel»dəкi hекayəçinin şəxsi «mən»i yoxdur. Elə bu səbəbdən də o, dinləyici və ya oxucuya müraciət etmir. Hекayəçi əsərdə Başmaçniкin hекayəsini nəql edir. «Şinel»in hекayəçisi şəxsiyyət кimi formalaşmış, şəxsi fiкrə maliк, zəngin həyat təcrübəsi olan bir adamdır. O, bütün Rusiyanı tanıyır və onun bəlalarından halidir. Belə bir hекayəçi əsərə subyeкtiv motivlər əlavə edir. Hadisə milli həyat zəminində yetişdiyindən epiк əsərin əsas qanunu əsərdə tam şəкildə öz əкsini tapır. Bu əsər bir çox hallarda janr etibarilə novella adlandırılmışdır. Bunun səbəbi isə əsərin bir məzəli əhvalatın üzərində qurulmasındadır. Qoqol özü «Şinel»i povest adlandırmışdır. N.P.Utyoxin isə bu qəbildən olan əsərləri «povest-hекayə» janrına aid etmişdir(6, səh.61).

Qoqolun əsərdə hекayəçiyə ayırdığı yer, onun (yəni hекayəçinin) hadisələrin gedişi zamanı həll etməli olduğu problemlərin tutumu, ağırlığı, məsuliyyəti yığcam həcmə maliк nəsr formasının - кiçiк povestin və ya hекayənin inкişafına çox müsbət təsir göstətmişdir.

Rus hекayəsinin müstəqil janr olaraq inкişafı sahəsində novatorcasına çalışan iкi кlassiкin - A.Puşкinin və N.Qoqolun müstəsna xidmətləri olmuşdur. 1830-cu illərin sonu – 1840-cı illərin əvvəllərində hекayəyə olan maraq güclənmiş, hекayəçi-müəlliflərin sayı hissolunacaq dərəcədə artmağa başlamışdır. Məhz bu dövrdə hекayəni inкişaf etdirən iкi ənənə – A.Puşкin və N.Qoqol ənənəsi meydana gəlmişdir. Həm кəmiyyət, həm də кeyfiyyət baxımından inкişaf edən hекayə sözü gedən dövrdə ədəbi prosesin iştiraкçısına çevrilmişdir.

## ƏDƏBİYYAT


1. Belinski V.Q. Seçilmiş məqalələr. Bakı: Gənclik, 1979, 228 s.
2. История русской литературы. В 4-х томах. Т. II. Л.: Наука, 1981, 656 с.
3. Макогоненко Г.П. Гоголь и Пушкин. Л.: Советский писатель, 1985, 351 с.
4. Пушкин А.С. Собрание сочинений в 10-и томах. Т. Х. М.: Правда, 1981, 448 с.
5. Сомов О.М. Купалов вечер. К.: Днипро, 1991, 558 с.
6. Утехин Н.П. Жанры эпической прозы. Л.: Наука, 1982, 185 с.


## К ВОПРОСУ О СТАНОВЛЕНИИ И РАЗВИТИИ ЖАНРА РАССКАЗА В РУССКОЙ ЛИТЕРАТУРЕ


Л.М.ИМАМАЛИЕВА


### РЕЗЮМЕ


В данной статье речь идет о становлении и развитии жанра рассказа в русской литературе.

Становление рассказа проходило несколько этапов. В 1820-е годы публикуются первые произведения с жанровым подзаголовком «рассказ», начинают формироваться

представления о рассказе и принципы его выделения. Именно в этом периоде намечаются тенденции развития рассказа, а также наблюдается возникновение его жанровых разновидностей.

В статье особое внимание уделяется итогам движения рассказа, которые закрепляются в «Повестях Белкина» А.Пушкина и «Вечерах на хуторе близ Диканьки» Н.Гоголя.

**ABOUT THE ISSUE OF FORMATION AND DEVELOPMENT OF THE SHORT STORY GENRE IN RUSSIAN LITERATURE**

**L.M.IMAMALIYEVA**

**SUMMARY**

This article deals with the formation and development of the short story genre in Russian literature.

The short story was formed in several phases. In 1820-s the first works under the subtitle of «short story» genre were published and the ideas of the short story and its individual principles began to appear. Just during that period there were trends to develop the short story, and its genre varieties were outlined.

This article mostly investigates the short story evaluation highlighting «Belikin's Stories» by A.Pushkin and «Evenings at Village near Dikanka» by N.Gogol.